Aydan Cəbili

Kölgələrin qaranlığı

II Cild

QANUN NƏŞRİYYATI

Mira Kölgələrin Saflığına olan inancını artıq itirib. Ona edilən xəyanətlərdən sonra getdikcə qaranlığa qərq olan yolundakı işığı bir məqsəd təşkil edir: Kölgələrin Velora Krallığına hücumunun qarşısını almaq. Amma o, çox qorxur. Ən çox da özündən qorxur. Çünki yolun sonunda özünü başqa bir qız olaraq tapacağından şübhələnir. Buna rəğmən, cəsarətli qalmağı bacaran Mira bilmirdi ki, uzaqlardan gələn bir ulduzun işığı onu qoruyacaq. *"İnsanlar düşünür ki, hər kəs öz hekayəsinin qəhrəmanıdır. Amma qəhrəmanlar xilas edənlər deyilmi? Bir insan özünü xilas edə bilmədikdən sonra qəhrəmanlığın nə mənası qalar?"*



Qaranlıqda işıq yaradıb,
öz gücünün fərqinə varan qızlar üçün...

Mündəricat

GİRİŞ 9
Fəsil 1 Gizli varis 14
Fəsil 2 Zamanın dalğaları 21
Fəsil 3 İşıqsız güc 26
Fəsil 4 Kölgə bir yalan 35
Fəsil 5 Parlamayan ulduz 44
Fəsil 6 Kölgənin günəşi 53
Fəsil 7 Kölgə qarğalar 62
Fəsil 8 Kölgə güclər 78
Fəsil 9 Hisslər də yalan danışa bilər? 90
Fəsil 10 Başqalarının hüzuru 99
Fəsil 11 Yanlış anlaşılan cümlələr 113
Fəsil 12 Qaranlıqda hüzur 125
Fəsil 13 Tükənmiş qızların qorxuları 138
Fəsil 14 Kölgə qayğılar 151
Fəsil 15 Ədalətsiz sonsuz günlər 168
Fəsil 16 Qaranlıq yolda işıq ümid edən məktublar 176
Fəsil 17 Məktubdakının nifrəti 187
Fəsil 18 Zavallı qəhrəman 189
Fəsil 19 Qüsursuz dostlar 199
Fəsil 20 Gecənin qonağı 216
Fəsil 21 Qısa həyata gecikmək 225
Fəsil 22 Səhvlərə qarşı mərhəmət 236
Fəsil 23 Solmasın çiçəklərim 249

Fəsil 24 Qüsurlu dostlar 255
Fəsil 25 Qorxmuş sevgi 264
Fəsil 26 Ay və Ulduzun gizli hekayəsi 272
Fəsil 27 Kölgə Zevalis 277
Fəsil 28 Gözəl xatirələr də ağrı verər 291
Fəsil 29 Kölgə yolçuluq 297
Fəsil 30 Səbirli birinin acısı 314
Fəsil 31 Velora Krallığı 320
Fəsil 32 Maskalı Kölgələr 331
Fəsil 33 Krallıqların qanlı oyunu 340
Fəsil 34 Təhlükə səsi 350
Fəsil 35 Qarğaların lənəti 359
Fəsil 36 Öz-özünü məhv edənlər 368
Fəsil 37 Qırılmış hisslər yağışı 376
Fəsil 38 Eşitmək istəmədiyin cavablar 383
Fəsil 39 Son işıq 393
Fəsil 40 Ulduz yenidən parlayır 405
Fəsil 41 Sirli güc 414
Fəsil 42 Xəfifə alınmış oyun 420
Fəsil 43 Kölgə hakimiyyəti 436
Final 439
Obrazlarıma təşəkkürüm: 443



GİRİŞ

Min illər əvvəl bu ucu-bucağı görünməyən kainatda – cənnətdə İlahinin yanında mələklər kimi saf, xidmətkar varlıqlar yaşayırmış. Bu varlıqlar "Qanadsız mələklər" kimi də tanınırdı. Qanadsız mələklər İlahinin hər əmrinə itaət edər, vəzifələrini layiqincə yerinə yetirərdilər.

Qanadsız mələklərin fərqli dostları da var idi. Onlar İlahi tərəfindən yaradılan "İnsan" qövmü idi. Onlar cinsinə görə "Hafi" və "Halə" adlanırdı. Halə nurlu və parıltılı gözəlliyə sahib bir qadın idi. Hafi isə yaraşıqlı və mərd bir kişi idi. Mələklər dostları Hafi və Haləyə ayrı bir maraq göstərir, bəzən onlar kimi olmadıqları üçün heyfislənir, sonra isə bunun yanlış olduğunu anlayıb bu fikirdən daşınırdılar. Deyəsən, mələklər "yeddi böyük günah"dan birinə artıq zəmin yaradırdılar. Bu, onların qəlbində yaranan qısqanclıq hissi idi.



Mələklər Halə və Hafiyə sədaqətlə xidmət edir, onların hər dediyini anlayışla qarşılamağa çalışırdılar. Bir gün onlar qədər gözəl bir məxluqa çevriləcəklərini arzu edirdilər.

İlahi Halə və Hafiyə hər şeyi bəxş etmişdi. Onlardan sadəcə bir istəyi olmuşdu. Cənnət bağında mövcud olan

bir ağaca – alma ağacına yaxın getməsinlər, onun qıvrımlı budaqlarından sallanan qıpqırmızı, dadlı almalarından yeməsinlər. Hafi və Halə bu deyilənlərə uzun müddət əməl etdi, amma gözəl çiçəklər açıb bar verən bu alma ağacı kimi onların da istəkləri böyüyür, İlahinin qadağasına meyilləri artırdı.

Günlərin bir günü, mələklərdən biri – aralarında ən qısqancı yolunu azdı və iblisə qulaq verdi. O, Hafi və Halənin kiçik bir səhv etməsini gözləyirdi. Çünki onların gözəlliyini qısqanır və onlar kimi olmaq istəyirdi.

Əslində, mələklər çirkin varlıqlar deyildi, amma insana oxşar bir əlaməti yox idi. O, qısqandığı insanların əksinə bulud kimi bəyaz və saf idi. Ən azından elə görünürdü. Onun insana bənzər tək tərəfi yalnız əllərinin olması idi. O, ruh idi, qanadları olmayan "mələk" idi.

İblis qısqanc mələyi yoldan çıxararaq inandırır ki, əgər istədiyini etsə, onu da insana çevirəcək. Gəl görək ki, iblisin istədiyi çox asan bir iş idi. Mələk düşünmədən onunla razılaşdı.

Halə və Hafiyə gedib deyir ki, "İlahi mənə tapşırdı ki, alma ağacından meyvə yeməyə icazə verdiyini sizə çatdırım".

Halə və Hafi əvvəlcə təəccüblənir. Ona başqa suallar verməyə başlayırlar. Hətta Halə bunu özünün İlahidən soruşacağını da bildirir. Mələk isə: "Onu narahat eləməyin. İlahinin ən yaxın xidmətkarının yalan danışdığını düşünürsünüz?" Bu sözlərdən sonra Halə və Hafidə şübhə yeri qalmır. Halə razılaşır, çünki onsuz da bu almaları dadmaq eşqi onu yuxularında da həyəcanlandırırdı.